# Heydər Əliyevin Anım Günü

12 dekabr 2024-cü il tarixində Qəbələ Rayon İcra Hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimayyətinin nümayəndələri Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər.





# Ehsan məclisi

12 dekabr 2024-cü il tarixdə Qəbələ Rayon İcra hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin Anım günü ilə əlaqədar ehsan məclisi təşkil edilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının,hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, rayon ictimaiyyətinin nümayəndələrinin, şəhid ailələri, qazilər, və ağsaqqalların iştirak etdiyi tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanova tədbir iştirakçılarını salamlayaraq Ümummilli Lider Heydər Əliyevin irsinin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışdığını qeyd etmişdir. Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev çıxış edərək Dövlət müstəqilliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri olmuş, xalqımızın xilaskarı, dahi lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük layihələrdən, iqtisadi islahatlardan, Ulu Öndərin bölgələrə, o cümlədən Qəbələ rayonuna səfərlərinin əhəmiyyətindən bəhs etmiş, Ümummilli Liderin təməlini qoyduğu daxili və xarici siyasət kursunun, dövlət quruculuğu konsepsiyasının ölkə Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirildiyini və yeni çalarlarla zənginləşdirildiyini diqqətə çatdırmışdır. Tədbirdə Ulu Öndərin ruhuna dualar oxunmuş və tədbir ehsan məclisi ilə davam etmişdir.



# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.





İmamlı kəndi.



Seyidqışlaq kəndi.



Məlikli kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin dekabr ayında səyyar qəbullar İmamlı, Seyidqışlaq, Məlikli və kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyət üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**

**Fotolar S. Umuyevindir.**

***QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2025-ci İLİN YANVAR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ***

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zarağan kəndi | 09.01.2025 | Zarağan tam orta məktəbi, saat $15^{00}$ |
| Nic qəsəbəsi | 16.01.2025 | Nic 2 saylı tam orta məktəbi, saat $15^{00}$ |
| Yengicə kəndi | 23.01.2025 | Yengicə ümumi orta məktəbi, saat $15^{00}$ |

# Vətəndaş qəbulları



Dekabr ayının 13-də və 20-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulları keçirilib. Vətəndaşların müraciətləri dinlənilmiş, irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

# Alban-Udi Xristian İcması üçün Təlim Mərkəzinin açılışı

Qəbələ rayon Nic qəsəbəsində yerləşən Çotari kilsəsində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi tərəfindən Alban-Udi Xristian İcması üçün Təlim Mərkəzinin açılışı baş tutmuşdur. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin və Alban-Udi Xristian icmasının nümayəndələrinin iştirak etdiyi tədbirdə multikultural dəyərlərin təbliği və təşviqinin ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu diqqətə çatdırılmış, rayonumuzda yaşayan müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq və mehriban qonşuluq şəraitində yaşadığı bildirilmişdir. Tədbir iştirakçıları öncə Çotari kilsəsini ziyarət etmiş, daha sonra Təlim Mərkəzində yaradılan şəraitlə tanış olmuşlar.



**"Qəbələ"**